Təsdiq edirəm:

UNEC Zaqatala filialının

direktoru _______ i.f.d. dos.R.X.Qasımov

"14" fevral 2025-ci il

# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

# AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ ( UNEC)

# UNEC ZAQATALA FİLİALI

# TƏLİM PROSESİNİN MONİTORİNQİNİN TƏŞKİLİ QAYDALARI

Zaqatala-2025

## AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ ( UNEC)

## UNEC ZAQATALA FİLİALINDA

## TƏLİM PROSESİNİN MONİTORİNQİNİN TƏŞKİLİ QAYDALARI

### 1. Ümumi müddəalar

1.1. Təlim prosesinin monitorinqinin təşkilinin Qaydaları (bundan sonra, Qaydalar) Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Zaqatala filialı (bundan sonra, UNEC Zaqatala filialı) Təlim prosesinin monitorinqinin (bundan sonra, Monitorinq) təşkilati-hüquqi əsaslarını, Monitorinq prosesi iştirakçılarının hüquq və vəzifələrini tənzimləyir.

1.2. Monitorinq Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununa, filialın "Keyfiyyət Təminatı Komissiyasının" Əsasnaməsinə uyğun olaraq, UNEC rektorunun 04 oktyabr 2022-ci il tarixli №217/1/2022 sayılı əmrinə əsasən yaradılan monitorinq qrupu tərəfindən həyata keçirilir. UNEC Zaqatala filialının "Keyfiyyət və Qiymətləndirmə mütəxəssisi" tərəfindən hər semestrın əvvəli monitorinq cədvəli tərtib olunaraq filialın direktoru tərəfindən təsdiq olunur.

### 2. Monitorinqin məqsədi və vəzifələri

2.1. Monitorinqin əsas məqsədi təlim prosesində professor-müəllim heyəti tərəfindən tətbiq olunan təlim strategiyaları, metod və alətlərin qiymətləndirilməsilə təlim, tədris, qiymətləndirmə və öyrənmə proseslərinin təkmilləşdirilməsi istiqamətində tövsiyələrin verilməsi, eləcə də, akademik heyət arasında təcrübə mübadiləsinin aparılmasından ibarətdir.

2.2. Monitorinq aşağıdakı vəzifələrin həyata keçirilməsinə xidmət edir:

- Tədris prosesinin obyektiv və səmərəli təşkil edilməsi ilə əlaqədar təlim prosesini qiymətləndirmək;
- Professor-müəllim heyətinin səriştələrinin artırılması məqsədilə təlim ehtiyaclarını müəyyənləşdirmək;

- Tədris, təlim, qiymətləndirmə və öyrənmə proseslərinin təkmilləşdirməsini nəzərdə tutan təklifləri rəhbərliyə təqdim etmək.

**3. Monitorinq qrupunun tərkibi və təşkili**

3.1. Monitorinq keçirilməsi məqsədilə Monitorinq qrupu yaradılır və qiymətləndirmə monitorinq qrupuna daxil olan üzvlər tərəfindən həyata keçirilir.

3.2. UNEC Zaqatala filialında Monitorinq cədvəlinə uyğun təşkil olunan yoxlanışların baş tutması üçün, monitorinq qrupunun minimum 3 üzvü iştirak etməlidir. Əks halda dərsə monitorinq təşkil olunmur.

3.3. Monitorinqlərin təşkili üçün nəzərdə tutulan qaydalar açıq dərslərə aid deyil.

3.4. Monitorinq qrupunun üzvü olaraq iştirak edəcək akademik heyət üzvlərinə qoyulan tələblər aşağıdakı kimidir:

- ali təhsil sahəsində ən az üç illik pedaqoji stajının olması;
- universitetdə ən azı ştat və ya yarım ştat akademik heyət üzvü olması;
- zərurət yarandığı halda eyni fənni tədris edən filialın akademik heyət üzvü müvafiq qrupunun yekun rəyi ilə monitorinq prosesinə dəvət edilə bilər.

3.5. Qrup üzvlərinə monitorinqin təşkilinə dair qaydalar təqdim olunur.

3.6. Monitorinq həm ənənəvi, həm də online formada keçirilən dərslərə təşkil edilir.

3.7. Monitorinq qrupu işini əvvəlcədən müəyyənləşdirilmiş meyarlar əsasında aparır və monitorinqin keçirildiyi yekun tarixdən 15 iş günü ərzində monitorinq blanklarının yekun hesabatı filialın Keyfiyyət mütəxəssisi tərəfindən tərtib olunur.

3.8. Monitorinq qrupunun səlahiyyət müddəti onun yaradılması haqqında müvafiq əmrlə müəyyən edilir.

**4. Monitorinqin təşkili forması**

4.1. Monitorinq imtahan sessiyasının yekununda fənn üzrə ən yüksək və ən aşağı müvəffəqiyyət və keyfiyyət nəticələri nəzərə alınmaqla və ya tələbələrin rəy sorğusu nəticələrinin təhlili əsasında həyata keçirilir. Monitorinq tədbirlərinin sayı semestrda hər dərsə 1 dəfə olaraq təşkil edilir.

4.2. Monitorinq qrupunun yekun qərarı ilə təkrar monitorinq təşkil oluna bilər.

4.3. Monitorinq dərs cədvəlinə uyğun olaraq hər semestrin əvvəli planlaşdırılır və monitorinq cədvəlinə uyğun təşkil edilir.

4.4. Monitorinqin qrupunun üzvlərinin rəyi ilə təsdiq olunan Monitorinq blankı və cədvəli hazırlanır.

## 5. Monitorinq qrup üzvlərinin hüquq və vəzifələri

5.1. Qrup üzvləri Monitorinq prosesində aşağıdakı hüquqlara malikdir:

- Monitorinq prosesinin səmərəli təşkili üçün rəy və təklifləri bildirmək;
- Monitorinq aparılacaq fənnin sillabusu, fənn proqramı və müvafiq təhsil proqramı ilə tanış olmaq.

5.2. Qrup üzvləri Monitorinq prosesində aşağıdakı vəzifələri icra etməlidir:

- Meyarlar üzrə təqdim edilmiş monitorinq blankında təlim prosesi ilə əlaqədar qiymətləndirməni obyektiv və dolğun şəkildə aparmaq;
- Monitorinqin yekununda qiymətləndirmə blankını həmin dərs yoxlanışından dərhal sonra imzalı şəkildə filialın "Keyfiyyətin təminatı və qiymətləndirmə üzrə mütəxəss"isinə təqdim etmək;
- Monitorinq cədvəli və qiymətləndirmə prosesinə aid məlumatları gizli saxlamaq;
- Tədris prosesinin gedişatına və Monitorinq prosesinin subyektlərinə hörmətlə yanaşmaq (dərsin gedişatı zamanı müdaxilənin edilməməsi, dərsin gedişatı zamanı əlavə sualların müəllim və tələbələrə ünvanlanmaması).

6. **Akademik heyət üzvlərinin hüquq və vəzifələri**

6.1 Professor-müəllim heyətinin üzvləri Monitorinq prosesində aşağıdakı hüquqlara malikdir:

- Monitorinqin keçirilməsi qaydaları haqqında tədris ilinin əvvəli müvafiq strukturlardan məlumat almaq;
- Monitorinq nəticələrinə dair blank və yekun hesabatla tanış olmaq;

6.2. Professor-müəllim heyətinin üzvləri Monitorinq prosesində aşağıdakı vəzifələri icra etməlidir:

- Monitorinq qrupunun üzvləri tərəfindən təklif olunan tövsiyələri icra etmək.

**7. Yekun müddəalar**

7.1. Monitorinqin nəticələri Daxili Keyfiyyət Komissiyasının iclasında müzakirə edilir.

7.2. Monitorinq nəticələrinə dair filialın "Keyfiyyət və Qiymətləndirmə mütəxəssisi" yekun hesabat hazırlayır və DKTS Komissiyanın iclasında yekun hesabatların təhlili aparılır.

7.3. Yekun hesabat əsasında Monitorinq prosesində iştirak etmiş professor müəllim heyət üzvünə müvafiq təkmilləşdirmə istiqamətli məsləhət verilir, zərurət yarandığı halda təkrar monitorinq təşkil olunur.

**Əlavə 1.**

**UNEC Zaqatala filialı monitorinq qrupunun mühazirə dərsinin monitorinq blankı**

Akademik heyət üzvünün A.S. : ____________________________________________

Fənnin adı : ____________________________________________________________

İxtisas / Kurs / Qrup : ___________________________________________________

Mühazirə dərsinin mövzusu : _______________________________________________

________________________________________________________________________

1. Monitorinq zamanı dərsin qiymətləndirilməsi aşağıdakı aşağıdakı meyarlar üzrə aparılır:

| Uyğundur | Qismən Uyğundur | Tamamilə Uyğundur | |
|---|---|---|---|
| ☐ | ☐ | ☐ | Müəllim vaxtında dərsə başlayıb, davamiyyətin yoxlanışını həyata keçirib. |
| ☐ | ☐ | ☐ | Müəllimin nitqi eşidilən və aydındır |
| ☐ | ☐ | ☐ | Müəllim dərsdən gözlənilən bütün təlim nəticələrini aydın çatdırır, mövzunun və fənnin təlim məqsəd və nəticələrini əlaqələndirir, dərsi təlim nəticələrinə tamamilə uyğun təşkil edir. |
| ☐ | ☐ | ☐ | Termin və anlayışların məğzi təqdimat vasitəsilə izah (şəkil video və s) olunur və nümunələr təqdim olunur. |
| ☐ | ☐ | ☐ | Müəllim dərs materiallarını aydın izah edir, auditoriyadan nə gözlənildiyini aydın ifadə edir. Cari mövzuda keçilənləri əvvəlki mövzularda öyrənilənlərlə əlaqələndirir, dərsi elmi ədəbiyyatla və bir sıra digər müvafiq məlumat mənbələr ilə əlaqələndirir. |
| ☐ | ☐ | ☐ | Müəllim öyrətməkdə və tələbələrə münasibətdə həvəs və ruh yüksəkliyi yaradır. Tələbələrin sual verməsi, iştirakı və müzakirənin təşviqi təmin edilir ; |
| ☐ | ☐ | ☐ | Müəllim rəqəmsal həllər, avadanlıq və məkandan, o cümlədən vizual təqdimatdan və audio vizual dəstəkçi vasitələrdən səmərəli istifadə edir. |

| *Yekun rəy (təklif və tövsiyələr):* |
|---|
| |

Komissiya üzvünün ASA:

Komissiya üzvünün imzası:

Tarix / Saat:

**MONİTORİNQ QRUPUNUN ÜZVLƏRİ:**

1. dos. Qədimova Həqiqət Kərim - Tədris və elmi işlər üzrə direktor müavini ______________________

2. dos. Cavadzadə Xəyyam Natiq – İnzibati və təşkilati məsələlər üzrə direktor müavini ______________

3. dos. Raziyev Səfər Əmin – İMD-nin "Texniki və texnoloji" bölmə rəhbəri______________________

4. Əliyeva Tükəz Əli - Keyfiyyət təminatı və qiymətləndirmə üzrə mütəxəssis______________________

5. İsmayılova Pərvanə Məhəmməd – İMD-nin "İqtisadiyyat və idarəetmə" bölmə rəhbəri______________

UNEC Zaqatala filialının direktoru: i.f.d. dos.R.X.Qasımov

**Əlavə 2.**

**UNEC Zaqatala filialı monitorinq qrupunun seminar dərsinin monitorinq blankı**

Akademik heyət üzvünün A.S. : ____________________________________________

Fənnin adı : ____________________________________________

İxtisas / Kurs / Qrup : ____________________________________________

Seminar dərsinin mövzusu : ____________________________________________

____________________________________________

1. Monitorinq zamanı dərsin qiymətləndirilməsi aşağıdakı meyarlar üzrə aparılır:

| Uyğundur | Qismən Uyğundur | Tamamilə Uyğundur | |
|---|---|---|---|
| ☐ | ☐ | ☐ | Müəllim vaxtında dərsə başlayıb, davamiyyətin yoxlanışını həyata keçirib. |
| ☐ | ☐ | ☐ | Müəllim tələbələri keçirilən dərs materialı üzrə öyrəndiklərini ətraflı izah etməsinə və əlaqələndirməsinə fəal təşviq edir. |
| ☐ | ☐ | ☐ | Müəllim dərs müddətində bütün tələbələri ədalətli yanaşma ilə düzgün qiymətləndirir. Bütün auditoriyanın müzakirədə iştirak etməsinə, iştirakçı olmasına nail olur. |
| ☐ | ☐ | ☐ | Mövzu ilə bağlı tələbələrə suallar ünvanlanır və müvafiq olaraq qiymətləndirmə aparılır. |
| ☐ | ☐ | ☐ | Müəllim dərsin təşkilində bütün tələbələrin iştirakını təmin etmək üçün Frontal sorğu metodundan istifadə edir. |
| ☐ | ☐ | ☐ | Müəllim dərsin təşkilində bütün tələbələrin iştirakını təmin etmək üçün kiçik qruplarda iş (teamwork) metodundan istifadə edir. |
| ☐ | ☐ | ☐ | Müəllim tələbələrdə analitik təhlil, tədqiqat bacarığı, vaxtı düzgün idarəetmə bacarıqlarını inkişaf etdirmək üçün Fəal (interaktiv) təlim metodundan istifadə edir. |
| ☐ | ☐ | ☐ | Müəllim dərsin təşkilində bütün tələbələrin iştirakını təmin etmək üçün Yazılı test metodundan istifadə edir. |

| *Yekun rəy (təklif və tövsiyələr):* |
| --- |
| |

Komissiya üzvünün ASA:

Komissiya üzvünün imzası:

Tarix / Saat:

**MONİTORİNQ QRUPUNUN ÜZVLƏRİ:**

1. dos. Qədimova Həqiqət Kərim - Tədris və elmi işlər üzrə direktor müavini ____________________

2. dos. Cavadzadə Xəyyam Natiq – İnzibati və təşkilati məsələlər üzrə direktor müavini ____________

3. dos. Raziyev Səfər Əmin – İMD-nin "Texniki və texnoloji" bölmə rəhbəri____________________

4. Əliyeva Tükəz Əli - Keyfiyyət təminatı və qiymətləndirmə üzrə mütəxəssis ____________________

5. İsmayılova Pərvanə Məhəmməd – İMD-nin "İqtisadiyyat və idarəetmə" bölmə rəhbəri____________

UNEC Zaqatala filialının direktoru: i.f.d. dos.R.X.Qasımov